Əlavə təhsil müəssisələrindən Təhsil Nazirliyinə daxil olan ixtisasartırma təhsili proqramlarının qiymətləndirilməsi və tətbiqi mexanizminin yaradılmasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Əlavə təhsil müəssisələri tərəfindən təqdim olunan ixtisasartırma təhsili proqramlarının qiymətləndirilməsi və tətbiqinə icazə verilməsini həyata keçirmək üçün aşağıdakı tərkibdə komissiya yaradılsın:

| | |
|---|---|
| Aydın Kazımzadə | Bakı Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, komissiyanın sədri |
| İlham Mustafayev | Ali və orta ixtisas təhsili şöbəsinin müdiri |
| Aydın Əhmədov | Kənd rayonları üzrə ümumi təhsil şöbəsinin müdiri |
| Fərzəli Qədirov | Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin müdiri |
| Təranə Hacıyeva | Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri |
| Şahrza Əliyev | İqtisadiyyat şöbəsinin müdiri |
| Faiq Şahbazlı | Dərslik və nəşriyyat şöbəsinin müdiri |
| Ağababa İbrahimov | Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin müdiri |
| Gültəkin Hüseynova | Elm şöbəsinin müdiri |
| İsmayıl Sadıqov | Təhsilin idarəolunmasının məlumat sistemləri şöbəsinin müdiri |
| Namiq Məmmədov | Texniki peşə təhsili şöbəsinin müdiri |
| Nərminə Alnağıyeva | Məktəbəqədər təhsil sektorunun müdiri |
| Elvin Rüstəmov | TSİİL üzrə Əlaqələndirmə qrupunun direktoru |
| Samir Məmmədov | Təhsil sisteminin informasiyalaşdırılması idarəsinin rəisi |
| Məlahət Hacıyeva | De-institutlaşma və uşaqların müdafiəsi idarəsinin rəisi |
| Ənvər Abbasov | Təhsil Problemləri İnstitutunun Kurikulum Mərkəzinin direktoru |
| Rəsul Əsgərov | Təhsil Problemləri İnstitutunun İlkin Peşə Təhsilinin İnkişaf Mərkəzinin direktoru |
| Zülfiyyə Veysova | Bakı Avropa Liseyinin direktoru |
| Məhəbbət Vəliyeva | Akademik Zərifə Əliyeva adına məktəbin direktoru |
| Gülşən Orucova | 6 nömrəli məktəb-liseyin direktoru |

2. İxtisasartırma təhsili proqramlarının müəyyənləşdirilmiş meyarlar əsasındaqiymətləndirilməsi və rəy verilməsi məqsədilə pedaqoji kadrların ayrı-ayrı kateqoriyaları üzrə ekspert qrupları yaradılsın (siyahı əlavə olunur).

Əsas: Təhsil Nazirliyinin 14 fevral 2013-cü il tarixli müşavirəsinin qərarı.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***
***25 fevral 2013-cü il***

***№305***

---

**Əlavələr:**

Məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları üçün ixtisasartırma təhsilinin Kurikulum Çərçivəsi

İxtisasartırma təhsili proqramlarının qiymətləndirilməsi və tətbiqinə dair təlimat